Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Rəqs -milli və mənəvi dəyərlərimizin əyləncəli və zövqlü ifadəsi

**29 aprel Beynəlxalq Rəqs günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** Nərgiz Məcidova

**Redaktor:** Ruhiyyə Məmmədli

**İxtisas redaktoru və buraxılışa məsul:** Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

**Rəqs -milli və mənəvi dəyərlərimizin əyləncəli və zövqlü ifadəsi** – 29 aprel Beynəlxalq Rəqs Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait/Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Məcidova ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 34 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Giriş



Rəqs insana psixoloji və mənəvi rahatlıq verən bir incəsənət növüdür. O, sadəcə, musiqinin müşayiəti ilə hər hansı hərəkətin ifası deyil, əslində həyatın əksidir. Bu hərəkətlərlə insanlar bir çox məqamları izah edə və ya içindəkiləri göstərə bilirlər. Rəqs, ürəyin nə danışdığını hər kəsin ruhuna çatdırmağa imkan verir. Hər rəqs özündə bir mənanı, tarixi, incəsənəti yaşadır. Biz rəqs vasitəsilə həm tarixi, incəsənəti yaşadır, həm də mənəvi zövq alırıq. Əgər qədim zamanlarda rəqslər Allaha sitayiş, onun xeyir-duasını almaq mənası kəsb edirdisə, müasir mədəniyyətdə rəqslər daha çox əyləncə sahəsinə aid edilir. Dünyanın bir çox ölkələrində rəqs sənətinin tarixinə, onun yaşadılmasına böyük önəm verilir. 1982-ci ildən UNESCO-nun qərarı ilə hər il 29 aprel tarixinin "Beynəlxalq rəqs günü" kimi qeyd olunması da buna sübutdur. Bu gün fransız baletmeysteri, müasir dünya baletinin nəzəriyyəçisi sayılan Jan-Jorje Noverin (1727-1810) xatirəsinə ehtiram olaraq təsis edilmişdir. Bu günü bütün rəqs dünyası - opera və balet teatrları, rəqs truppaları, xalq və müasir rəqs ansamblları, peşəkar və özfəaliyyət artistləri bayramı kimi qeyd edirlər. Beynəlxalq bayram kimi Beynəlxalq rəqs günü ilk dəfə 1982-ci ildə YUNESKO tərəfindən təşkil edilmiş iclasda qərara alınmışdırdir. Rəqs Gününün ilk qeyd edilməsi 29 aprel 1983-cü ildə baş tutmuşdur. Xoreoqrafiya sənətinin bütün üslub və

istiqamətlərinə həsr olunacaq Rəqs Gününün yaradılmasının təşəbbüskarı bu günü xatirə əlaməti kimi qeyd etməyi təklif edən ən böyük xoreoqraf P.A.Qusev olmuşdur. Günün təsis olunmasında məqsəd ictimaiyyətin diqqətini rəqs sənətinə cəlb etmək olmuşdur. YUNESKO-nun bu günün qeyd olunmasının təşkilinə həsr olunmuş xülasəsində belə sətirlər var idi ki, bu gündə bütün dünya xalqlarına rəqsin bütün gözəllikləri vurğulanmalıdır. "Beynəlxalq Rəqs Günü Mesajı" nın hədəfi bütün siyasi, mədəni və etnik maneələri aşaraq ortaq dil olan rəqs vasitəsilə insanları bir araya gətirmək, bu sənətin yaratdığı xoş anların içində əylənmək və şadlanmaqdır. Otuz ilddən çoxdur ki, öz missiyasını belə mükəmməl şəkildə yerinə yetirən rəqs günü bir çoxları məşhurların çıxışlarına qatılmaq üçün meydançalara, teatr salonlarına, musiqi məkanlarına axışırlar. Rəqs qrupları bu gün pulsuz tamaşalar təşkil edir və dövrümün ən böyük xoreoqrafları rəqsin ən böyük məqsədi haqqında danışırlar. Hər il xüsusi qeyd edilən bu günlə bağlı müxtəlif ölkələrdə rəqs festifalları, təntənəli tədbirlər, konsertlər keçirilir. Hər il aprelin 29-da Moskvada Beynəlxalq Xoreoqraflar Assosiasiyası tərəfindən ən yaxşı rəqqasələrin mükafatlandırma mərasimi keçirilir. Bu hadisə dünyanın ən yaxşı rəqs meydançalarından birində baş verir - Əsas mərhələ Rusiyada Bolşoy Teatrda keçirilir.

## Rəqsin tarix kimi qeyd olunduğu gün

Dünyanın bir çox inkişafda olan ölkələrində olduğu kimi, Azərbaycan xalqınında özünəməxsus bir çox rəqs nümunələri, rəqs kollektivləri vardır. Onlara nümunə olaraq *“Vağzalı”, “Uzundərə”, “Nəlbəki”, “Ceyranı”, “Cəngi”, “Qaytağı”, "Qazağı”, “Xançobanı”* rəqslərini göstərmək olar. İzləyərkən rəqslərimizdə kökləri eramızdan əvvəlki minilliklərə gedib çıxan bu milli rəqslərimizin tariximizlə ayrılmaz surətdə bağlı olub, xalqımızın milli xüsusiyyətini, həyat və məişətini əks etdirdiyini görürük. Qobustan qayaüstü rəsmlərində əksini tapmış belə rəqs səhnələri bunu sübut edir. Rəsmlər sübut edir ki, milli rəqslərimizin tarixi qədim məişətimzdən, yaşam tərzimizdən irəli gəlir. Azərbaycan xalq rəqsləri bu baxımdan çox rəngarəngdir. Onlar quruluş, süjet və mövzu baxımından biri-birindən fərqlənir. Bunlardan məşhur olan milli rəqslərimizdən *“Azərbaycan", “Heyvagülü”, “Uzundərə”, “Toy rəqsi”, “Turacı”, “Tərəkəmə”, “Cəngi”, “Şalaxo”, “İnnabı”, “Qızılgül”, “Qazağı”, “Qaytağı”, “Qoçəli”, “Lalə”, “Misri”, “Naznazı”, “Vağzalı”, “Yallı”* və digərlərini misal gətirmək olar. Beləliklə, dünyanın bir çox yerlərində olduğu kimi, Azərbaycanda da rəqs sənətinin müxtəlif növləri və janrları öz mahiyyətini şifahi xalq ədəbiyyatının bir qolu olan xalq rəqslərindən götürmüşdür. Rəqs sənəti xalqın iqtisadi, ictimai və mənəvi həyatında meydana gələn dəyişikliklərlə əlaqədar olaraq yeni məzmun və istifadə vasitələri əldə edir, tədbirlər təşkil edir. İnformasiya həftəsi – müəyyən mövzu üzrə kompleks tədbirləri, sərgi-baxışı, biblioqrafik icmalları,

söhbəti, məsləhətləri əks etdirir. Rəqs heyrətamiz bir sənət növü olub bizləri heyran qoyur.
Beynəlxalq Rəqs Günü olduğunu bilirdinizmi? Beynəlxalq səviyyədə qeyd edilən bu günlərdə ölkəmizdə incəsənət və mədəniyyət sahəsində müxtəlif tədbirlər həyata keçirilir. Kitabxanada yer alan əlamətdar günlərlə bağlı tədbirlər sırasında "Beynəlxalq rəqs günü" də var. Vəsaiti işləməkdə məqsədimiz Beynəlxalq rəqs günü ilə bağlı tədbirlərin hazırlanmasında gənc kitabxanaçılara köməklik göstərməkdir.

Azərbaycan Respublikasının milli-mədəni irsinin və informasiya ehtiyatlarının qorunması, gələcək nəsillərə çatdırılması, ötürülməsində kitabxanaların üzərinə böyük vəzifələr düşür. Oxucu cəlbi üçün əyani və şifahi yolla keçirilən tədbirlər bu işdə köməkçi vasitələrdəndir.
Kitabxanada maraqlı tədbirlərdən biri olan biblioqrafik icmallar, mövzu icmalları, geniş yayılmış şifahi təbliğat üsullarından biridir. Mövzu icmallarında hər hansı bir mövzu və ya aktual məsələyə həsr edilmiş ədəbiyyat barədə danışılır. Mövzu icmallarında müvafiq mövzu ilə əlaqədar son illərdə nəşr olunmuş müxtəlif tipli kitablar seçilir. Mövzu icmalı keçirilərkən hər kitabın geniş xarakteristikası verilir. İcmalın əvvəlində mövzunun adı, sonra məqsədi qeyd edillir. Burada təkcə biblioqrafik təsvir və müəllif haqqında məlumat deyil, kitabın məzmunu, onun keyfiyyəti və nöqsanlarından danışılır. Mövzu icmallarının ətraflı planını, mətnini işçilər və kitabxana işinə cəlb edilmiş fəallarla əvvəlcədən müzakirə etmək məqsədəuyğun olardı. Keçirilən məlumat xarakterli tədbirlərdən biri olan icmalların keçirilməsində məqsəd oxucuları yubilyar gün haqqında və ya yubilyar haqqqında

geniş məlumatlandırmaq, onları müvafiq bədii ədəbiyyatla tanış etmək və həmin kitabları təbliğ etməkdir. Kitabxanada kitabların tövsiyə olunması və mütaliənin təşkili sahəsində oxucuların yaş və fərdi xüsusiyyətlərinə və  tövsiyə olunan kitabın xüsusiyyətlərinə uyğun olaraq müxtəlif üsul və metodlar vardır. Hazırlanmış tövsiyə icmalları universal, sahəvi, mövzu və şəxsi xarakter daşıya bilərlər. İcmalda adlarını çəkdiyimiz rəqs  sənətimizi yaşadan rəqqas və rəqqasələrimiz haqqında oxuculara məlumat verə bilərik. Buda onlara milli rəqsimizi yaşadan sənətkarların kimlər olduğunu tanıtmağa kömək edəcəkdir. İcmalı yazıçı Mustafa Çəmənlinin qələmə aldığı "Səhnəmizin ağ ləçəyi" adlı kitabı ilə dəyərləndirə bilərik.




**Çəmənli M. Səhnəmizin ağ çiçəyi; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Aspoliqraf, 2017. - 192 s.**

Kitab 2017-ci ildə "Aspoliqraf" nəşriyyatı tərəfindən nəşr edilib oxucuların ixtiyarına verilmişdir. Vəsaitdə Azərbaycan Respublikasının xalq artisti, Prezident təqaüdçüsü, rəqqasəmiz Roza Cəlilovanın həyat və yaradıcılığından danışılır. Kitab haqqında kitabxanaçı oxuculara ətraflı məlumat verdikdən sonra onları Mustafa Çəmənlinin "Səhnəmizin ağ çiçəyi" kitabı ilə ətraflı tanış edir. Onlara Xalq artisti, Prezident təqaüdçüsü rəqqasə Roza Cəlilovanın həyat və səhnə fəaliyyətindən maraqlı faktlar danışır. Həmçinin müəllif kitabda rəqqasə ilə çiyin-çiyinə çalışan sənət dostları haqqındada məlumat verir.

Rəqs insana fiziki sağlamlıq qazandırmaqla yanaşı, psixoloji və mənəvi rahatlıq bəxş edir. Hələ eramızdan 2-3 min il əvvəl, tunc dövründə Azərbaycanda rəqs sənəti insanların məişətində, adət-ənənəsində müəyyən mövqe tutub. Hazırda Milli rəqslərimizə xas olan və onu başqa xalqların rəqslərindən fərqləndirən səciyyəvi cəhətlər var. Azərbaycanıın tanınmış rəqs ustalarından olan Əminə Dilbazi, Afaq Məlikova, Roza Cəlilova, Xumar Zülfüqarova, Böyükağa Məmmədov və başqaları öz ifalarında milli elementləri qoruyub saxlamaqla, milli rəqsi inkişaf etdirə biliblər. Azərbaycan rəqslərinin nota salınması və nəşri 1930-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasının Elmi-Tədqiqat Musiqi Kabinetinin yaradılmasından sonra mümkün olub. Bu qurum xalq musiqisinin, eləcə də rəqslərin toplanması və nota yazılmasına aid iş planını sözü gedən vaxtdan həyata keçirməyə başlayır. Məşhur müğənni, xalq musiqisinin dərin bilicisi Bülbül Elmi-Tədqiqat Musiqi Kabinetinə rəhbərlik edib. Onun yeni yaradılan musiqi müəssisəsinin işində, folklorun toplanıb çap olunmasında müstəsna xidmətlərini qeyd etmək lazımdır.

**Söhbət:**

Kitabxanada həyata keçirilən məlumat xarakterli tədbirlərdən biridə oxucularla söhbətlərdir. Məlumat xarakterli dedikdə burada tədbir zamanı oxuculara müəyyən biliklərin verilməsi nəzərdə tutulur. Oxucularla aparılan söhbətlərdə belə tədbirlərdəndir. Beynəlxalq Rəqs günü haqqında hazırlanmış söhbəti sizlərə təqdim edirik.

**Kitabxanaçı** – Rəqs müxtəlif xalqların tarixini özündə yaşadaraq, onun milli və mənəvi dəyərlərinin əyləncəli və zövqlü ifadəsidir. Əziz oxucular bu gün Beynəlxalq Rəqs

Günüdür. Bu gün 1982-ci il 29 apreldə UNESCO-nun Beynəlxalq Rəqs Şurasının (International Dance Council, CID) təşəbbüsü ilə bütün rəqs növ və üslublarını əhatə etməklə qeyd olunmağa başlayıb. Məhz, həmin tarixin "Beynəlxalq Rəqs Günü" kimi keçirilməsi müasir baletin atası sayılan fransız baletmeysteri, xoreoqrafiya sənətinin islahatçısı və nəzəriyyəçisi Jan Jorj Noverrin (Jean-Georges Noverre) doğum günü ilə əlaqələndirilib. Gəlin görək rəqs günü şərəfinə adlandırılmış bu şəxs kimdir?

**Jean - Georges Nover kimdir?**

O, on səkkizinci əsrdə xoreoqrafiya və balet kimi sənətin perspektivini, hər zaman aktuallığını və müasirliyini dərk edərək görən bənzərsiz bir insan olub və rəqsin əsla heç vaxt dəbdən düşməyəcəyinə, insanların var olduqları müddətdə gözəl və zərif bədən hərəkətləri ilə hər zaman bu hissləri ifadə edə biləcəyinə inanıb. 29 aprel 1727-ci ildə Fransada anadan olan GERİ gənc yaşlarında bütün bir balet truppasına rəhbərlik etməyi bacarmışdır. Bəs bu gün nə vaxt və necə qeyd edilməyə başlayıb? Rəqs haqqında bütün bilik və nailiyyətlərini Nover *"Rəqs və Baletlərdə Məktublar"* əsərində yazmağa başlayıb. Əsərdə əsas fikir bir xoreoqraf, bəstəkar və sənətkarın ideyaları ilə birləşir. 1759-cu ildə nəşr olunan bu kitab bu gündə xoreoqrafiya sənətinin nəzəriyyəsində ən çox satılan kitablardan hesab olunur.

Rəqs sənətinin beynəlxalq səviyyədə həmişə yüksək dəyərləndirilməsinin səbəblərindən biri rəngkarlıq, heykəltəraşlıq, teatr, musiqi, poeziya, memarlıqdan tutmuş müasir fotoqrafiya, kino, multimedia, işıq və səs dizaynına qədər müxtəlif incəsənət növlərinin rəqs tamaşalarına cəlb edilməsidir. Belə rəqs tamaşaları geniş auditoriya tərəfindən

daha çox qiymətləndirilir. Hətta xoreoqrafiya humanitar fənlər, o cümlədən tarix, ədəbiyyat, fəlsəfə, linqvistika ilə də zənginləşib daha da maraqlı sahəyə çevrilib. Bu səbəbdən UNESCO-nun Beynəlxalq Rəqs Şurası hər il bu günün keçirilməsi üçün  incəsənətin müxtəlif sahələri – rəssamlıq, xareoqrafiya, balet, aerobika və b. sahələri ilə birlikdə qeyd edilməsi üçün tapşırıqlar verir.

Kitabxanada rəqs günü ilə bağlı rəsm müsabiqəsinin keçirilməsi məqsədəuyğundur.  Müsabiqənin keçirilməsində məqsəd oxucuların rəsm çəkmək qabiliyyətinin də üzə çıxarılmasıdır. Dünyanın bir çox inkişafda olan ölkələrində olduğu kimi, Azərbaycanda da sadə və ibtidai xalq musiqi alətləri meydana gəlməzdən çox-çox əvvəl rəqs tamaşaçıların çəpik çalmaları ilə əldə edilən ritmik zərblərin mahiyyəti ilə yaranıb. Müxtəlif peşələrlə, hətta ovçuluqla məşğul olan tayfalar öz sehirli ayinlərini çeviklik, qıvraqlıq, insan gücünü nümayiş etdirən plastik hərəkətlərdən ibarət rəqslərlə həyata keçirirdilər. “Rəssamlıq və rəqs” adlı sərgidə rəqs növlərinə xas geyim formaları, rəqslərimizə uyğun şəkillər toplanır. Rəqsdə, kino tamaşalarına aid rəqs geyimləri, oxucuların fikirləşdiyi şəkildə verilir . Söhbətdə oxuculara “Azərbycan rəqs sənətinin şah əsəri Əminə Dilbazi” kitabı haqqında məlumat verə bilərik. Kitab Azərbaycan incəsənətinin əfsanəvi ifaçısı Əminə Dilbazinin 100 illik yubileyi münasibətilə çap edilimişdir. Onun həyat və yaradıcılığından bəhs edən bu kitab ABŞ Konqresinin



kitabxanasında qeydiyyata alınmışdır. Kitabda Azərbaycan rəqs sənətinin şah əsəri olan Əminə Dilbazinin həyatı, Üzeyir Hacıbəyli ilə, Səməd Vurğunla, Heydər Əliyevlə, Niyazi ilə, Mahmud Esenbayevlə, Tahir Salahovla, atası Paşa bəylə, həyat yoldaşı Cövdət Hacıyevlə, Mirvarid Dilbazi və s. dahi və görkəmli şəxsiyyətlər ilə görüş, söhbət və xatirələri, rəqs sənətinin dərin fəlsəfəsi və s. mövzular yer alıb.

**Kitab icmalı**




Oxuculara geyim mədəniyyətimizin, folklor və ənənələrimizin gözəl bilicisi, Xalq rəssamı Bədurə Əfqanlının yaradıcılığına həsr olunmuş "Bədurə Əfqanlı – teatr, kino, rəqs: geyim və obrazlar" kitabını kitabxanada təqdim edə bilərik. Azərbaycanın ilk qadın teatr rəssamı olan Bədurə Əfqanlının yaradıcılığı təsviri sənət tariximizdə müstəsna yer tutub. O, ömrünün təqribən 40 ilini teatra və milli rəqs geyimlərinin yaradılmasına, həmçinin 15 ilini kino sənətinə həsr edib, bu sahələr üzrə tarixi və sənətkarlıq baxımından olduqca dəyərli əsərlər yaradıb. Bununla da Azərbaycan kino, teatr və rəqs geyimi rəssamlığı ənənələrinin inkişafına əvəzsiz töhfələr verib. Rəqs geyim rəssamlığı məhz onun adı ilə bağlıdır deyə bilərik. Kitabda rəssamın sənətə gəldiyi dövrdən - 1933-cü ildən sonrakı 70 ildən artıq müddət ərzində yaratdığı teatr, kino və rəqs incəsənəti sahələrində yaratdığı rəngarəng, bir-birindən maraqlı obraz, geyim və dekorasiya eskizləri toplanmışdır. Kitabı oxuculara tanıtmaq onları folklor yaradıcılığımızı tanımağa daha həvəsləndirər.

**Seminar:**

Rəqslər rəsmlərdə. – Sağlamlıq və rəqs



Seminarı giriş sözü ilə açan kitabxanaçı iştirakçılara idmanla yanaşı rəqs hərəkətlərinin də sağlamlığa faydasından danışır. BMT-də “inqilabi araşdırma” adlandırılan tədqiqatın müəllifləri inandırıcı şəkildə sübut edib ki, musiqi, rəssamlıq və rəqs bir sıra xəstəliklərin profilaktikası üçün təsirli vasitə olmaqla bərabər, həm də “dərman” hesab edilə bilər. Gələcək nəslə sağlam böyüməsi üçün idmanın xeyrindən danışmaq kitabxanada daha məqsədəuyğundur. Bununla yanaşı kitabxanada “İdman və rəqs hərəkətləri” mövzusunda seminar təşkil etmək daha maraqlı olar. Seminarda onlara 1910-cu ildə fransız rəssamı Anri Matiss tərəfindən çəkilmiş “Rəqs” adlı əsəri nümayiş edə bilərik. Bu rəsm əsərinin iki versiyası mövçuddur: birinçi Nyu-York Müasir incəsənət muzeyində, ikinçi daha çox tanınan versiyası isə Sankt-Peterburq şəhərində Ermitaj muzeyində saxlanılır. Əsər Moskvalı kolleksiyaçı Sergey Şukin tərəfindən 1906-ci ildə rəssamın Parisdəki emalatxanasını ziyarət edib mülkünün giriş pilləkəni üçün sifariş etdiyi üç dekorativ pannodan biridir. 1930-cu ildə amerikalı kolleksiyaçı Albert Barns Matissə mövzunun sonraki inkişafını tapdığı indi “Paris rəqsi” adlanan (Müasir İncəsənət Muzeyi, Paris ) iri həcmli “Rəqs” (1932) pannosu sifariş edir. Əsərin sujetidə Süjet Rəqsdir. “fr. La Danse” adlı əsərin ilk versiya rəssamı Anri Matiss tərəfindən 1909-cu ildə yağlı boya texnikası ilə

işlənmişdir. Ölçüləri 260 sm × 391 sm, saxlanıldığı yer isə Nyu-York, Müasir İncəsənət Muzeyidir. Rəsmin kompozisiyası və fiqurların forması U. Bleykin “Oberon, Titaniya və Bakın pərilərlə rəqsi" (1786) suluboya işini xatırladır. Rəsmin sujetini Matiss kolliurda gördüyü xalq oyunlarından götürmüşdür. “Rəqsin” digər versiyası Yunan vaza rəssamlığı və Sergey Dyaqilevin Parisdəki Rus mövsümlərinin təəssüratı altında yaranmışdır. Tablonun əsas ifadə vasitəsi - təsvir vasitələrinin lakonikliyinin rəsmin böyük ölçüsü ilə ahəng təşkil etməsidir. “Rəqs” cəmi üç rənglə çəkilmişdir. Göy rənglə səma, çəhrayı rənglə-rəqqasların bədəni, yaşıl boya ilə təpə təsvir edilmişdir. Rəsmdə təpənin başında əl-ələ rəqs edən beş çılpaq insan təsvir edilmişdir.

**Rəqs festivalı:**

Rəqs günü ilə əlaqədər F. B Köçərli adına Respublika uşaq kitabxanasının təşkilatçılığı ilə rəqs festifalı təşkil edə bilərik. “Uşaqlar gələcəyimizdir”, “Vətənim Azərbaycandır” və b. adlar altında Rəqs Festivalının keçirilməsində əsas məqsəd xalqların folklor yaradıcılığını, mədəni irsimizi, folklorumuzu uşaqlara sevdirmək, milli rəqslərimizin gözəlliklərini, incəliklərini nümayiş etmək, rəqs mərkəzləri arasında gəncləri inkişaf etdirmək üçün şərait yaratmaqdır. Festival çərçivəsində bacarıqlı oxucular tərəfindən rəqs nömrələri nümayiş etdirilir. Nömrələr maraqla dinlənildikdən sonra münsiflər heyəti tərəfindən mükafatlandırılır. Sonda rəqs qrupunun üzvləri və xoreoqraflar diplom və hədiyyələrlə təltif olunurlar.

# Sərgi


Azerbaycan
Xalq Rəqsləri
АЗƏРБАЈЧАН
آذربایجان خالق رقصلری
Qemer Almaszade
Redaktor-Efrasyab Bedelbeyli
Kiril
Baki-1959


Klassik rəqsə gedən yol
Путь к классическому танцу


Azərbaycanın Xalq rəssamı
BƏDURƏ
ƏFQANLI
AĞAMALOVA
TEATR KİNO RƏQS
geyim və obrazlar
AZƏRBAYCAN MİLLİ XALÇA MUZEYİ
23-28 OKTYABR 2019
YENİ GALLERY


SƏHNƏMİZİN
AĞ ÇİÇƏYİ


AZƏR ALLAHVERƏNOV
KƏRİM KƏRİMLİ
AZƏRBAYCAN
RƏQS SƏNƏTİNİN
ŞAH ƏSƏRİ -
Əminə Dilbazi

**Rəqs günü haqqında sitatlar:**

Kainatda hər şeyin ritmi var, hər şey rəqs edir.

**Maya Angelou**

Rəssam öz əsərini kətan üzərində çəkir, amma musiqiçilər öz şəkillərini sükut üzərində çəkirlər.

**Leopold Stokovski**

Əgər tamamilə azadsansa, rəqs et.

**Mövlana Cəlaləddin Rumi**

Hər hansı bir rəqs forması heç bir baxımdan rəqs etməməkdən yaxşıdır.

**Lynda Barr**

Hansı istiqamətə çevirsəniz, rəqs sizi Cənnətə doğru aparır.

**Sweetpea Tayler**

Rəqs bir şeirdir, hər hərəkəti bir sözdür.

**Margareta Gertrude Zelle**

Dəyişiklikdən məna çıxarmağın bir üsulu ona qərq olmaq, onunla köçmək və rəqsin bir hissəsi olmaqdır.

**Alan Vatt**

Siz rəqs edərkən, funksiyanız əmin bir yerə çatmamaqdır. Getdiyiniz yolun yanında hər addımdan həzz almaqdır.

**Ueyn Dayer**

Rəqs ayaqları və qolları ilə şeirdir.

**Çarlz Bodler**

Özünüz üçün rəqs edin. Kiminsə başa düşüb, düşməməsindən asılı olmayaraq.

**Louis Horst**

Həyat tangodur, burada əsas şey hərəkətdir. Dursan, rəqs dayanar, sən dayansan, həyat dayanar.

**Isadora Duncan**

Hər şeyi sözlə izah edə bilsəydiniz, rəqs etməyin mənası olmazdı.Enerji dalğalarda hərəkət edir. Dalğalar naxışlara çevrilir. Nümunələr ritmlər yaradır.

**Fridrix Nitsşe:**

Rəqs tədrisi xüsusi bir dərs növüdür, sınamamağa çalışır, kortəbiiliyi, könüllü özünü inkar etməyi, istəməməyi, təbiiliyi, Taoist passivliyi öyrədir.

**Samuel Beckett:**




Kökləri eramızdan əvvəlki minilliklərə gedib çıxan milli rəqslərimiz tariximizlə ayrılmaz surətdə bağlı olub, xalqımızın milli xüsusiyyətini, həyat və məişətini əks etdirir. Qobustan qayaüstü rəsmlərində əksini tapmış rəqs səhnələri bunu birbaşa sübut edir. Olduqca rəngarəng Azərbaycan xalq rəqsləri quruluş, süjet və mövzu baxımından biri-birindən çox fərqlənir. Bu baxımdan bu gün məhşur olan milli rəqslərimizə – “Azərbaycan”, “Heyvagülü”, “Uzundərə”, “Toy rəqsi”, “Turacı”, “Tərəkəmə”, “Cəngi”, “Şalaxo”, “İnnabı”, “Qızılgül”, “Qazağı”, “Qaytağı”, “Qoçəli”, “Lalə”, “Misri”, “Naznazı”, “Vağzalı”, “Yallı” və digərlərini misal gətirmək olar.

**Onlayn sərgi:**



Rəqs musiqisi Azərbaycan milli folklorunda xüsusi yer tutur. Azərbaycan xalq rəqslərinin çox qədim tarixi var. Qobustan qayaüstü rəsmlərində əksini tapmış rəqs səhnələri bunun əyani sübutudur. Kitabxanada rəqs günü ərəfəsində milli rəqslərimizi təbliğ edən onlayn sərgi hazırlamaq məqsədəuyğundur. Nəzərə alsaq ki, oxucular daha çox virtual şəkildə məlumatlardan istifadə etməyə üstünlük verir, bu onların kitabxanaya cəlb edilməsinə kömək edər. Milli rəqslərimiz və rəqqasələrimiz haqqında qısaca

məlumat verməklə onlar üçün bu sərgini hazırlaya bilərik. “Rəqqasələrimizi tanıyaq” adlı bu virtual sərgidə oxucular mövzu ilə bağlı onları maraqlandıran suallara cavab tapırlar. Ritminə görə Azərbaycan rəqsləri 3 qrupa bölünür: ağır, aram – “Mirzəyi”, “Turacı”, “Uzundərə”; yüngül şən – “Tərəkəmə”, “Ceyranı”, “Brilyant (rəqs); şıdırğı **“Qaytağı”, “Qazağı”,** “Xançobanı”. Bəzi rəqslərin adı isə hərəkətlərlə bağlıdır: “Süzmə”, “Kəsmə”, “Atlanma”, “Çolağı”.
Aşağıda verilmiş linkdən istifadə etməklə siz rəqslə bağlı maraqlı məlumatlar əldə edə bilərsiniz.
https://www.youtube.com/watch?v=Vy10-PysWSY

Kitabxanalarda təşkil edilən Beynəlxalq rəqs günü ilə bağlı milli rəqslərimizdən ibarət keçirilən ədəbi-bədii gecədə iştirakçılarımıza milli rəqslərimizin tarixi haqqında məlumat verəcək, onları rəqs nümunələri ilə tanış edəcəyik. Rəqs tariximizə aid ədəbi-bədii gecəni “İncəsənət irsimizin rəqs mədəniyyəti tarixi” adlandırmaq olar. Tədbirin keçiriləcəyi zal qurulur. Rəqs haqqında sitatlar, plakatlar, zalda asılır.Rəqsimizin inkişaf tarixini əks etdirən ədəbiyyat sərgisi yerləşdirilir. Ədəbiyyat sərgisinin təxmini sxemini istifadə etmək üçün sizlərə təqdim edirik:

1.Başlıq
2.Sitat
3.Beynəlxalq rəqs günü haqqında şəkillər, qəzet və jurnallar
4. Beynəlxalq rəqs gününə aid ədəbiyyatlar




Belə gecələrin təşkili oxuculara həm əyləncə dolu bir gün bəxş edər, həmdə onları milli rəqslərimizin yaranma tarixi inkişafı ilə tanış edər.

Tədbirin təşkili zamanı rəqqas və rəqqasələrimiz dəvət edilir. Keçiriləcək zalda səhnə, video çarxın nümayiş etdirilməsi üçün proyektr qurulur. Rəqs tariximizi yaşadan şəkillərdən hazırlanmış sərgi hazırlanır. Sərgidə fotolar, kitablar və dövri mətbuatda çıxmış məqalələrdən ibarət çap məhsulları yerləşdirilir. Bu kitablar oxucuların kitaba və mütaliəyə cəlb olunmasına kömək etmək üçündür. Təyin edilmiş vaxtda iştirakçılar yığışır. Aparıcılar səhnəyə gəlir və tədbiri açıq elan edir.

**Aparıcı:** Azərbaycan zəngin tarix yaratmış bir ölkə kimi çətin sınaq illəri, zəfər illləri, zəhmət və hünər dolu bir həyat keçmişdir. Beynəlxalq Rəqs Günü təsis olunduğu tarixdən hər il dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd olunur. Ulu babalarımızın həyat tərzi, əməyi, mübarizəsi, sevgisi, nifrəti haqqında, yaratdıqları gözəl abidələr, sənətkarlıq nümunələri, qoşduqları mahnılar və nəğmələr haqqında məlumat az deyildir. Rəqslərimizin tarixi kökləri isə lap qədimlərə gedib çıxır. Təkcə onu deyək ki, hələ on min il bundan əvvəl Qobustan qayalarında naməlum rəssamlar həm fərdi, həm də kütləvi rəqslərin ayrı-ayrı məqamlarını həkk etmişlər. Həmin nadir yadigarlar bizə çox şey deyir.

**Aparıcı:** Qədim və bərəkətli Azərbaycan torpağında yüzlərcə insan nəsli bir - birini əvəz etmiş, zəngin tarix yaratmışdır. Bu tarixdə çətin sınaq illəri, zəfər illləri, zəhmət və hünər dolu bir həyat olmuş, Azərbaycan xalqının mədəniyyəti və incəsənəti yaranıb, inkişaf etmişdir. Ulu babalarımızın həyat tərzi, əməyi, mübarizəsi, sevgisi, nifrəti haqqında, yaratdıqları gözəl abidələr, sənətkarlıq nümunələri, qoşduqları mahnılar və nəğmələr haqqında məlumat az deyildir.

**Aparıcı:** Rəqslərimizin tarixi kökləri isə lap qədimlərə gedib çıxır. Böyük tarixə malik olan Azərbaycan xalqı həmişə öz şairləri, rəssamları, xalq sənətkarları, musiqiçiləri və incəsənət xadimləri ilə bütün dünyada tanınmış, onların yaratdıqları ölməz sənət nümunələri əbədiləşərək əsrlərin enişli- yoxuşlu yollarından şərəflə keçmişdir.

**Aparıcı:**Xalq musiqiçilərinin yaratdıqları döyüş ruhlu, əzəmətli, zövq oxşayan, lirik, xalqın istək və arzularını ifadə edən rəqslərimiz də nəsillərdən - nəsillərə keçərək xalq ruhunu oxşayan gözəl çalarlarla daha da zəngin olub bilavasitə xalq musiqisi zəminində yaranıb və inkişaf etmişdir.

**Aparıcı:**Əsrlərin sınağından keçmiş Azərbaycan xalq rəqsləri daima inkişafda olmuş, öz məna və vüsətini, forma və məzmununu dəyişmiş, daha da təravətlənmişdir. İncəsənətin bir qolu olan rəqslərimiz ülvilik, gözəllik və birlik rəmzi sayılmışdır.

**Aparıcı:** Olduqca rəngarəng olan xalq rəqslərimiz quruluş, süjet və mövzu baxımından biri-birindən çox fərqlənir. Bu gün məşhur olan milli rəqslərimizə *"Azərbaycan", "Heyvagülü", "Uzundərə", "Toy rəqsi", "Turacı", "Tərəkəmə", "Cəngi", "Şalaxo", "İnnabı", "Qızılgül", "Qazağı", "Qaytağı", "Qoçəli", "Lalə", "Misri", "Naznazı", "Vağzalı", "Yallı"* və digərlərini misal gətirmək olar.

**Aparıcı:** Dahi bəstəkar Üzeyir Hacıbəyli tərəfindən yaradılmış Azərbaycan Dövlət Mahnı və Rəqs Ansambılı həmişə tamaşaçılara bir-birindən gözəl və xoş ovqat bəxş edən rəqslərlə sevindirib. Əminə Dilbazi, Afaq Məlikova, Roza Xəlilova, Təranə Muradova, Tamilla Məmmədova, Böyükağa Məmmədov, Kamil Dadaşov, Böyükağa Atababayev və başqa rəqs ustalarımız isə öz ifalarında milli elementləri qoruyub saxlamaqla milli rəqsimizi inkişaf etdirərək yeni çalarlarla zənginləşdiriblər.

*( Ekranda Xalq rəqslərimizdən bəhs edən videorolik nümayiş edilir.)*

uruz.com/book/title/azerbaycan-halk-reqsleri-not

**Aparıcı:** Qədim və möhtəşəm rəqslərimiz var ki, peşəkar rəqs ansambllarımız yarandığı dövrdən indiyə qədər onlara maraqlı, süjetli, məzmunlu quruluşlar verərək həmişəyaşar səhnə həyatı bəxş etmişlər. Odur ki, Azərbaycan rəqs sənəti maraqlı rəqs quruluşları ilə dünya səhnələrində daim alqışlar-la qarşılanmış və ifaçılarımızın hər biri böyük uğurlar qazan-mışdır. Gəlin rəqslərimizin hər birinin tarixi ilə ayrılıqda iştirakçılarımızın hazırladıqları bu nömrədə tanış olaq.

*Səhnədə bir çox rəqsləri təmsil edən rəqqaslar görünür.*



**Yallı:** Yallı Azərbaycanda çox geniş yayılmış məşhur rəqslərdən biridir. Rəqs dövrə boyu ifa edilir, iştirak edənlər qollarını açaraq bir-birinin çeçələ barmağından tutur, ya da əllərini bir-birinin çiyninə qoyurlar. Rəqs təntənəli addımlarla başlanır, tədricən temp artır, texniki cəhətdən mürəkkəb olan tullanma hərəkətlərlə və böyük sürətlə tamamlanır. Dəstənin başında əlində dəsmal olan "yallıbaşı" durur. Bu rəqsi kişilər ayrıca və ya kişilərlə qadınlar birlikdə ifa edirlər .Qədim türk yurdu Naxçıvanda, onun ayrılmaz bir məkanı Şərurda, vaxtı ilə 100-dən artıq yallı növü olsa da, onların hamısı bu günə gəlib çatmamışdır. Lakin yadda qalan, yaşadılan, rəqs quruluşlarına gətirilən yallılar bu gün də oynanılır və dünyada təbliğ olunur. Şərur yallılarının biri də "Tirmə şal"dır.

*Rəqs musiqi müşayiəti ilə, həm də ifaçıların bayatı oxumaları ilə icra olunur.Monitorda Yallı rəqsinin nümayişi gedir.*



**"Mirzəyi"** Azərbaycan rəqs melodiyası olub təxminən XIX əsrin ikinci yarısında Şuşada neyçalan Mirzə adlı ifaçı tərəfindən yaradılmışdır. Müəllif rəqs havasına öz adını vermişdir. Bu rəqs havası yalnız təntənəli şənliklərdə, toylarda ifa olunur. Bütün məşhur rəqqas və rəqqasələrin repertuarında olan bu

rəqs melodiyası çox vaxt əldə dəsmal olmaqla həm kişi, həm də qadınlar tərəfindən ifa edilir

**Oxucu:**Gözəl, nəcib, qəlb oxşayan melodiyası olan *"Mirzəyi"*nin sədaları altında əli dəsmallı kişilər təmkin və aramla, qadınlar isə ağır tempdə ifa edirlər. *"Mirzəyi"*nin *"Vağzalı-Mirzəyi"* variantı da geniş yayılmışdır. *"Vağzalı"* rəqsi XVI əsrdə Azərbaycanda məskunlaşmış Qaraqoyunlu qəbiləsinə məxsus olan "Qarabağın ağırı" xalq havası, XVII-XVIII əsrlərdə "Gəlin atlandı", XIX əsrin sonu, XX əsrin əvvəllərində "Vağzalı" adlanmışdır. "Vağzalı" rəqs havasının öz fəlsəfəsi və insan hisslərinə təsir gücü var.

*Monitorda Vağzalı Mirzeyi rəqsi səslənir.*




**"Naz eləmə"** rəqsi rəqslər arasında böyük rəğbət və populyarlıq qazanmışdır. Rəqsin iki qəhrəmanı var: oğlan və qız. Bu rəqsin musiqisinin, quruluşunun müəllifi və ilk ifaçısı Əlibaba Abdullayev özü olmuşdur. O, 1942-ci ildən başlayaraq bu rəqsi Leyla Bədirbəyli, sonralar Əminə Dilbazi, Şəfiqə Əmirova və Tutu Həmidova ilə ifa etmişdir. Bu rəqsdə iki gəncin bir-birinə olan məhəbbət hissləri tərənnüm olunur. Bu məhəbbət rəqs hərəkətləri və üz cizgiləri ilə göstərilir. Klassik şairlərimiz və aşıqlarımız gözəlin nazını vəsf etmişdir Rəqsdə təbii ki, ilk anlarda qız naz edir, rəqsə daxil olmaq istəmir,

utanıb çəkinir, örpəklə üzünü örtmək, yəni yaşmanmaq istəyir, Oğlan da öz çevik hərəkətləri ilə qızı rəqsə dəvət edir. Finalda əvvəl qız, sonra isə oğlan və qız birlikdə oynayıb səhnəni tərk edirlər. Yarandığı andan bu günə qədər "Naz eləmə" rəqsi öz populyarlığını qoruyaraq səhnədən düşmür və sənət səfərlərində də müntəzəm olaraq oynanılır. "Naz eləmə" hətta Azərbaycanın müasir toylarının ssenarisinə daxil edilmişdir.

*Naz eləmə rəqsi balacalarin ifasında nümayiş edilir.*



**Qaytağı:** "Qaytağı" kəlməsi dilimizdə mövcud olub son dərəcə qəti, dinamik, sürətli mənasını bildirir. Melodik cəhətdən yeyin, cəld, şıdırğı, insanda şuxluq, gümrahlıq və yarış duyğusu oyadan bir rəqs havası olub Azərbaycan rəqsləri sırasına daxildir. Bəzi hallarda kəndir üstündə də oynanılır. Yarandığında məhz kəndir üzərində oynanıldığı üçün "Qaytağı" adlanıb! "Qaytağı" qıpçaq-oğuz elementlərini özündə birləşdirir.

**Oxucu:**"Qaytağı" kişi rəqsi olub, ritmi şux, təntənəli və qanı coşdurandır. Bu rəqs Azərbaycan bəstəkarlarının yaradıcılığında mühüm yer tutmuşdur. Ona görə də xeyli sayda "Qaytağı" əsərlərimiz vardır. Nümunə olaraq Səid Rüstəmov, Tofiq Quluyev, Rauf Hacıyev, Ağabacı Rzayeva, Rauf Hacıyev, Hacı Xanməmmədov, Adil Gəray, Həsən Nemətov, Ağası Məşədibəyov və Faiq Sücətdinovun adları qeyd olunmalıdır.

Elə bəstəkarlar var ki, məxsusi olaraq rəqs sənətimizin quruluşları üçün "Qaytağı"lar yazmışlar. Bu sırada Rauf Hacıyev, Niyazi, Ağası Məşədibəyov və Rəşid Əfəndiyevi qeyd edə bilərik. Ə.Abdullayev bir neçə bəstəkarın "Qaytağı" musiqisinə quruluş verərək solo hissəsini də özü ifa etmişdir. 1938-ci il Moskvada Ə.Abdullayevin "Qaytağı" rəqsini ifa etməsi xüsusi maraq yaratmışdı. 1959-cu il dekadasında Ə.Abdullayevin quruluşunda kütləvi rəqs "Qaytağı" da oynanılmış və böyük əhəmiyyət kəsb etmişdir.

*Monitorda Qaytağı rəqsi ilə oxucular tanış olur.*



**"Cəngi"**"Cəngi"rəqsinin musiqisi çağırış, döyüş ruhlu kütləvi rəqslərimizdən biri olaraq dəstə ilə ifa olunan cəngavərlik rəqsidir və ritmik səslənməsi ilə həmişə seçilib. Rəqs qılınc və qalxanlarla ifa edilərək döyüş meydanını təsvir edir, musiqi çağırışdır, döyüş və qələbə ruhludur. "Cəngi"dən opera və balet musiqisində istifadə olunmuşdur. Buna misal olaraq Ü.Hacıbəylinin "Koroğlu" operasının III pərdəsindəki cəngavərlik rəqsini, Q.Qarayevin "Yeddi gözəl" baletinin I pərdəsindəki rəqsi və s. göstərmək olar. Peşəkar rəqs ansambıllarımız yaranan gündən "Cəngi" repertuarda həmişə özünə mühüm yer tutmuşdur. "Cəngi" və "Koroğlu" havaları vaxtilə döyüş meydanlarında istifadə olunmuşdur. 1970-ci ildə "Abşeron ritmləri" sənədli filmi çəkilərkən Ə.Abdullayev "Çobanlar" rəqsinə Ü.Hacıbəylinin



“Cəngi”si ilə Qobustan qayalarında quruluş verir. 1975-ci ildə “Faşizm üzərində qələbənin 30 illiyi”nə həsr olunmuş tədbir üçün Ə.Abdullayev Mahnı və Rəqs ansamblı ilə Ü.Hacıbəylinin “Cəngi” əsəri ilə rəqs hazırlamışdır. F.Vəliyev 1987-1988-ci illərdə Azərbaycan Dövlət Rəqs ansamblında çalışarkən Ü.Hacıbəylinin “Cəngi” əsərinə rəqs quruluşu vermişdir. Düşünürük ki, hələ bəstəkarlarımız neçə-neçə “Cəngi”lər yazacaq və xoreoqraflar onlara quruluşlar verəcəklər.

*Cəngi rəqsindən parça və “Abşeron ritmləri” filmindən rəqs parçası nümayiş edilir.*

**“Stəkanlarla rəqs”:**Vaxtılə toylarda belə bir rəqs də oynanılıb. Rəqsin ifaçısı qadın məclisində qadın, kişi məclisində kişi olurdu. Hər iki əlin içində şərbət dolu iki stəkan olaraq oynanılarmış. Rəqsdə ustalıq ondan ibarətdir ki, rəqsi sona yetirənə qədər şərbət dağılıb tökülməsin və ya stəkanlar aşmasın. Toy şənliklərimizdə stəkanlarla ifa olunan rəqsə quruluş verilərək səhnəyə gətirilib. Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblı yarandığı ilk anlarda həmin rəqsi SSRİ Xalq artisti Qəmər Almaszadə qurub. Sonralar “Stəkanlarla rəqs”ə Azərbaycanın Xalq artisti Əlibaba Abdullayev quruluş verib. Həm tək, həm də kütləvi rəqsdə bunu Xalq artisti Əminə Dilbazi oynayıb. Bu çox çətin rəqsdir. Səhnədə stəkanlara soyuq çay və ya çay rəngində maye tökülür. Qeyd etdik ki, əslində xalq şənliklərində adəti üzrə stəkanlar şərbətlə dolu olurmuş. Axı,

el adəti üzrə toylarda şərbət paylanırmış. Bu rəqsin ifası zamanı musiqinin ritminə uyğun olaraq stəkanlar bir-birinə vurulmalıdır. Bu elə icra olunmalıdır ki, stəkanlar bir-birinə dəyərkən səs eşidilsin. "Stəkanla rəqs"in ən mahir ifaçıları Əminə Dilbazi, Aliyə Ramazanova və Zitta Babazadə olub. Rəqsə "Mirzəyi" rəqsinin musiqisi ilə quruluş verilmişdir.



**"Şalaxo":** "Şalaxo" əslində, "Şələqoy" rəqsi bizim qədim və çox populyar rəqslərimizdən biridir. "Şələqoy" sözü dilimizdə işlənərək "Şalaxo" kimi tələffüz halına gəlmişdir. Gürcülər bu sözü öz dialektləri ilə "Şaliko" adlandırmışlar. Lakin rəqs kimi bunun gürcü, Qafqaz və Qafqaz ətrafı xalqlara heç bir aidiyyatı  yoxdur. Çalıb-oynasalar da, bu heç kəsin deyil, yalnız Azərbaycan xalq rəqsidir. Keçmişdə xalqımızın övladları, cavan oğlanlar meşəyə odun yığmağa gedər və öz aralarında yarış keçirərmişlər. Qayıdanda bu yarışın davamı və əyləncə forması kimi rəqs edərmişlər. Onlar bir-birinə: "Hə, şələni yerə qoy, rəqs elə, məharətini göstər" deyər və öz aralarında yarışa nail olarmışlar. Elə o vaxtdan da rəqsin adı "Şələqoy" olaraq qalıb. "Şələqoy" bir rəqs musiqisi kimi daim toy-büsatın repertuarında olaraq bu gün də yaşamaqda və daim ifa olunmaqdadır. Yaşadığımız XX əsrin II yarısında və bu gün "Şələqoy"un el şənliklərində çalınmasını və böyük coşqunluq və həvəslə oynanılmasını görmüşük. Bə-

zən iti, bəzən də orta ritmdə, 6/8 ölçüdə çalınır. Əlbəttə, məclisdə iştirak edən qonağın sifarişinə əsasən orta və ya iti sürətli səsləndirilir.



**“Tərəkəmə” rəqsi:** Azərbaycanda populyar və ən çox sevilən bir rəqs havasıdır. Adından göründüyü kimi, Azərbaycanda yaşamış tərəkəmələrin adı ilə bağlıdır. “Tərəkəmə”nin iki variantı mövcuddur və bunlar gümrah, şux, həm də lirik melodiyaya malikdir. Birinci variant tərəkəmələrin özlərinin yaratdığı aram və vüqarlı rəqsdir. Bu vaxtilə ən cox Qarabağda yayılaraq yalnız qadınlar tərəfindən oynanılmışdır. İkinci variant daha çevik, oynaq ritmli, gumrah səsli, geniş hərəkətli rəqsdir və bunu həm qadınlar, həm də kişilər ifa edir. Gəzişmə, süzmə, fırlanma rəqsin əsas hərəkətləridir. Əlbəttə, fırlanma qadınlara aid deyildir. Musiqi ölçüsü 6/8, tempi cəld, oynaq, məqam əsası “Segah”dır. Ü.Hacıbəyli “Arşın mal alan”, R.M.Qliyer “Təntənəli uvertüra” və Ə.Bədəlbəyli “Qız qalası”nda “Tərəkəmə”nin melodiyasından istifadə ediblər. Hazırda da “Tərəkəmə” səhnəni tərk etmir. “Tərəkəmə” rəqsinin ən mahir ifaçılarından biri rəqqasə Əminə Dilbazi sayılır.

*Tərəkəmə rəqsi kiçikyaşlı rəqqasələrin ifasında zalı bəzəyir.*

**Aparıcı:** Dünya xalqlarının hər birinin rəqs nümunələri var. Rəqs musiqi müşayəti ilə yaranan hərəkətlərdir. Rəqslər musiqinin tempindən, mənşələrinə görə bir-birindən fərqlənir. Dünyanın bütün xalqlarının özləri tərəfindən düşünülmüş və sevilən rəqsləri var. Gürcü xalq rəqsi, Avar xalq rəqsi, Özbək xalq rəqsi və s.

**Aparıcı:**Gürcü rəqslərinin müxtəlif növləri mövcuddur. Onların hər birinin müxtəlif yaranma və inkişaf tarixi vardır. Kartuli, mtiuluri, davluri, bağdaduri, qandaqana, samaya, xevsuruli, kintouri, xancluri və s.

**Aparıcı:** Afrika xalqlarının da çox müxtəlif rəqsləri var. Onlar jumps və heyvanların təqlidləri şəklində maraqla ifa edilir. Bu rəqslər zamanı döyüş, ritual, ovçuluq, ruhları, seçilir. Ümumiyyətlə dünya xalqlarının rəqslərində insanların inancları, mədəniyyəti, tarixi və mənəviyyatı əks olunur. Kitabxanada oxuculara “Dünya xalqlarının rəqslərini tanıyaq” başlığı altında tədbir təşkil edib, onları bu mövzuda məlumatlandıra bilərik.

**F.Köçərli adına Respublika uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

Azərbaycanın milli azlıqların mahnı-rəqs folkloru. - Bakı : 2016. - 44 s.

Əmirov C. F. Simfonik rəqslər. Uşaq lövhələri : [Not] : Partitura. - Bakı : Şərq-Qərb, 2017. - 115 s.

Hacıbəyli Ü. Ə. Ləzgi rəqsi : [Not] : Xalq çalğı alətləri orkestri üçün partitura. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2010. - 16 s.

Kərimova N. İ. Klassik rəqsə gedən yol = Путь к классическому танцу. - Bakı : 2009. - 240 s.

Qasımova S. Azərbaycan xalq musiqi yaradıcılığı : Uşaq musiqi və incəsənət məktəblərinin IV və VI sinifləri üçün. - Bakı : Orxan, 2005. - 126 s.

**Dövrü mətbuatda**

Xanbəyli V. Rəqs sənəti: keçmişi var, bəs gələcəyi? // Mədəniyyət. - 2008. - 15 noyabr. - S. 6.

Xəlilzadə F. Yolumu nəvələrim davam etdirər : 29 aprel Beynəlxalq Rəqs Günüdür // Azərbaycan. - 2010. - 29 aprel. - N 91. - S. 7.

Qocayeva A. Ekranda özünü tanımayan rəqqasə : Rəqqasə Əminə Dilbazi haqqında // Yaddaş. - 2007. - 24 may. - S. 5.

Qocayeva A. Rəqs sənətinin korifeyi : Roza Cəlilova haqqında // İki sahil. - 2007. - 28 sentyabr. - S. 6.

Məhərrəmova T. Milli rəqslərimiz // Mədəni Həyat . - 2014. - № 4. - S. 31-33.

Məmmədov M. Şərur yallısı // Qobustan. - 2010. - N 1. - S. 88-91.
Mirzəyeva S. Xalq rəqslərində milli-estetik xüsusiyyətlər // Mədəni-maarif. - 2009. - N 7. - S. 67-71.
Mükərrəmoğlu M. O, Azərbaycan rəqs sənətinin şahzadəsidir : Əminə Dilbazi-90 // Xalq qəzeti. - 2009. - 26 dekabr. - N 288. - S. 9.
Nərimanoğlu M. Rəqs musiqinin canlı hərəkətidir : Dünyanın heç bir yerində Azərbaycandakı kimi, 111 rəqs növü movcüd deyil // Azərbaycan : qəzet. - 2015. - 2 may. - № 93. - S. 11.
Nizamiqızı H. Bizim sənətin sözü rəqsdir : Zakir Ağayev: Tamaşaçı səhnədə 2-3 dəqiqəlik gözəl rəqs, balet nömrəsi görürsə, bunun arxasında uzun məşq prosesi, insan əməyi dayanır // Mədəniyyət : qəzet. - 2021. - 12 fevral. - № 11. - S. 5.
Rəhimzadə M. Türkiyə və Azərbaycan milli rəqslərinin bədii xususiyyətləri // Mədəniyyət : jurnal. - 2021. - № Mart /Aprel (336). - S. 80-83.
Rəhmanlı Ə. Avropalılara rəqs öyrədən azərbaycanlı : Görkəmli xoreoqraf Mais Nuriyevin ömür və fəaliyyət yoluna bir nəzər // 525-ci qəzet. - 2022. - 3 fevral. - № 20. - S. 16.
Rəhmanlı Ə. Milli rəqs hərəkətləri // Mədəniyyət : jurnal. - 2021. - № Yanvar/fevral (335). - S. 78-80.
Rəqs, rəqs : Beynəlxalq Rəqs Günü // Göyərçin. - 2012. - № 4. - S. 3.
Saminə H. Milli rəqslərimiz ülvilik, gözəllik və birlik rəmzi sayılır : Beynəlxalq Rəqs Günü // Mədəniyyət. - 2015. - № 4. - S. 58-61.

Soltanlı S. Rəqs və rəssamlıq həyatımın mənasıdır : Afaq Hüseynova haqqında // Mədəniyyət. - 2015. - 26 iyun. - № 48. - S. 13.
Şuşa qalasında yaranan xalq rəqsləri // İki sahil. - 2021. - 19 mart. - № 51. - S. 24.
Ürəkləri fəth edən Tanqo // Pəncərə. - 2008. - № 1. - S. 60-69.
Vahid T. 40 il dayanmadan rəqs // Mədəniyyət. - 2011. - 27 aprel. - № 5. - S. 7.
Yurdoğlu E. Naxçıvan halay və yallıları ilk dəfə komleks tədqiqat işığında // 525-ci qəzet. - 2022. - 11 fevral. - № 26. - S. 14.
Zöhrabova L. Məmməd Saleh İsmayılov: Rəqs musiqisinin xüsusiyyətləri haqqında // Mədəni Maarif. - 2010. - N 12. - S. 34-35.

# Rəqs -milli və mənəvi dəyərlərimizin əyləncəli və zövqlü ifadəsi

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**